Salam mənim qələm dostum,

Mən Amelia. 19 yaşım var. Və mən ilk dəfədir ki, bir ermənіyə məktub yazıram. Düzünü desəm bayaqdan fikirləşirəm amma nə yazacağımı, hardan başlayacağımı heç bilmirəm. Mən hər hansısa bir kitab, və ya hekayə oxuyanda ordaki insanları beynimdə canlandırmağı sevirəm. Və çox istərdim ki, əlində tutduğun bu məktubu yazan insanı sən də təsəvvür edə biləsən. Mən qıvırcıq saçlı, çox danışan, çox gülən, orta boylarda bir qızam.

Mənim ailəm Zəngilandandır, amma təəssüf ki, mən orada doğulmamışam. Onlar sizinlə çox yaxın olduqlarını deyirlər. Mənim dayım deyir ki, onun çoxlu erməni dostu olub, birlikdə çox yaxşı vaxt keçiriblər və maraqlı xatirələri var. Anam isə danışır ki, alışveriş etməyə Qafana tez tez gedib gələrdilər. Mən orda doğulub böyüməsəm belə oralar mənə həmişə çox maraqlı gəlib. Bilirsən, yayda Bakıdakı dostlarım tətildə öz rayonlarına – şəhərlərinə gedirlər. Ancaq təəssüf ki, mən gedə bilmirəm. Çünki işğal edilib.

Bəlkə də, sən mənim görməyi arzu etdiyim yerlərdə dəfələrlə olmusan. Kim bilir, bəlkə də, nə vaxtsa görüşüb Çinar meşəsində gəzəciyik. Və ya təsəvvür et ki, Arazın qırağında oturmuşuq və bir birimizə məktub yazarkən keçirdiyimiz hisslərdən danışırıq. Düzdür, bəlkə də, bu çox uzun illər sonra olacaq. Amma bu prosesi tezləşdirmək üçün biz sülhü daha çox insana aşılamalıyıq. Mən düşünürəm ki, əgər sən bu məktubu oxuyursansa, deməli sən də müharibəni yox, sülhü seçmisən.

Ən xoş diləklərimlə!